# Tərəfsiz və qərəzsiz yazılanlar

## *Vasif Quliyevin kitabı haqda*







Beşinci əsr erməni tarixçisi Monsey Xorenatsinin, akademik M.Abeqyanın, M.Nalbandyanın, B.İşxanyanın, Vardan Vardanyanın, Hovanes Tumanyanın və daha çox "yanların", ermənişünasların ayrı-ayrı zaman kəsimində Azərbaycan torpaqları hesabına yaradılmış indiki Ermənistanda məskunlaşan hayların kimliyi, "yazıq, məzlum" təbiətləri haqqında yazdıqlarından seçmələrlə açılır müqtədir jurnalist Vasif Quliyevin rus dilindən tərcümə edib çap etdirdiyi materiallar toplusu. Belə bir nəticə hasil olur ki, bu hayların tarix boyu yalandan düzüb-qoşduqları, sadəcə, hay-küydən ibarətdir, təkcə soyadlarında silinməz iz qoyan nalbənd, dəmirçi, xan, bəy və bu sıradan olan çoxsaylı sözlərindən başqa. Olub-qalanları olan soyadları belə türk sözlərindən ibarətdir, Azərbaycan mənşəlidir.

Vaqif Quliyevin tərcüməsində, Novruz Novruzovun redaktorluğu ilə çap olunan "Sən köləsən, sən qorxaqsan, çünki ermənisən" toplusu sözsüz şəkillər kimidir; yeni əlavə şərhə, izaha ehtiyac yoxdur. Kitaba daxil edilən məqalələrdəki həqiqətləri bizlər yox, ermənilərin özləri tarixləşdiriblər. Yəni özləri yazıblar ki, haylar kiçik, azsaylı, zəif və çox hallarda özgələrin hakimiyyəti altında yaşayan toplumdur. Erməni dili hibrit, yəni calaqdır. Urartı və başqa qonşuları assimilyasiya edib. Qarabağın dağlıq hissələrində yaşayan ermənilər Türkiyə və İrandan gəlmişlər. Azərbaycan torpağı onlar üçün sığınacaq yeri olub.

Özləri, öz başbilənləri yazıb. Və bu yazılanlara S.Qlinka, Çavçavadize, B.Beliçko, V.Mayevski kimi fərqli millətlərdən olan görkəmli şəxsiyyətlərin mötəbər fikirləri əlavə olunub.

Böyük zəhmət bahasına başa gəlmiş yeni nəşr "hay tarixi"ni öyrənmək dərsliyi kimidir. Qərəzsiz və tərəfsiz bir vəsait...

* * *

"Bu qala-daşlı qala" kitabı isə Vasif Quliyevin qədim Şuşa, Xankəndi, ümumən, Qarabağ bölgəsi haqqında olan araşdırmalarını bir araya gətirib. İlk qarabağlı qadın şairimiz, İbrahimxəlil Xan Cavanşirin həyat yoldaşı Xanımnənə xanımın poetik yaradıcılığından tutmuş bu bölgədə nüfuz, söz sahibi olmuş görkəmli şəxsiyyətlərin, eləcə də sadə insanların ömür yolu incələnir yeni nəşrdə. Tanımaq və tanıtmaq istəyi ön plandadır.

Tanınmış jurnalist Mehman Cavadoğlunun "Ön söz əvəzi: Vasifin şəhəri" yazısıyla açılır yeni nəşr. Yazılanlar oxucunu Şuşanın bütün doğma məkanlarına, eləcə də düpbədüz Əhməd bəy Ağaoğlunun evinə kimi götürür...

**_Sərvaz_**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 4 noyabr.- №- 42-43.- S. 32.